AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS



www.pq.mia.gov.az

polisazerbaycan

15 iyul 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 26 (3539)

# BEYNƏLXALQ TRİBUNALARDA AZƏRBAYCANIN HƏQİQƏTLƏRİ SƏSLƏNİR

## *Prezident İlham Əliyev: “Azərbaycanın şanlı Qələbəsi beynəlxalq hüququn, ədalətin və Qoşulmama Hərəkatı dəyərlərinin təntənəsidir”*

İyulun 13-də Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Xarici işlər nazirlərinin aralıq konfransında videoformatda çıxışı təqdim olunub.

Dövlətimizin başçısı bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət, habelə ölkələrin daxili işlərinə qarışmamaq kimi prinsipləri təşviq edən tarixi “Bandunq prinsipləri”nin Azərbaycanın xarici siyasətinin prioritetlərilə eynilik təşkil etdiyini, buna görə də 10 il əvvəl ölkəmizin Qoşulmama Hərəkatı ailəsinə üzv olduğunu bildirib. Qeyd edib ki, 2019-cu ildə Hərəkatın sədrliyini öz üzərinə götürən Azərbaycan müfəssəl və ambisiyalı fəaliyyət planı qəbul etmişdi. Ancaq COVID-19 pandemiyası dünyanı bürüdü, yeni reallıqlar və çətinliklər yaratdı. Bundan sonra diqqət pandemiyanın yaratdığı misilsiz çətinliklərə qarşı Hərəkatın beynəlxalq səviyyədə səmərəli və birgə cavabının formalaşdırılması üzərində cəmləndi.

Prezident İlham Əliyev xatırladıb ki, Azərbaycan pandemiya ilə mübarizə sahəsində Qoşulmama Hərəkatı ölkələri də daxil olmaqla, 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı edib. Bununla yanaşı, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi edib ki, bunun da yarısı Qoşulmama Hərəkatının üzv dövlətləri üçün nəzərdə tutulub.



Qlobal səhiyyə böhranı fonunda “peyvənd millətçiliyi”nin narahatlıq doğurduğunu xüsusu vurğulayan dövlətimizin başçısı dünyada mövcud olan peyvəndlərin 82 faizdən çoxunun zəngin dövlətlər tərəfindən alınıb, azgəlirli ölkələrin payına düşən peyvəndin həcminin isə yalnız 0,9 faiz təşkil etməsini az inkişaf etmiş ölkələrin öz əhalisini qorumaq imkanına mane olduğunu beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb.

Prezident İlham Əliyev konfransda ötən il Ermənistanın işğalına son qoyulmasına da diqqət çəkib.

“Ötən ilin sentyabrında Ermənistan Azərbaycana qarşı irimiqyaslı hərbi hücuma keçdi. Bu təcavüzə cavab olaraq, Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı və işğal altındakı ərazilərin böyük hissəsini azad etdi.

Qırx dörd günlük müharibə nəticəsində tam məğlubiyyətə uğrayan Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza ataraq, Azərbaycanın işğal altındakı digər ərazilərindən qoşunlarını çıxarmağa məcbur oldu. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını təmin etdi.

Beləliklə, Azərbaycan 30 illik münaqişəyə son qoydu, hərbi-siyasi yollarla özünün ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşdu”,-deyən Prezident İlham Əliyev növbəti dəfə beynəlxalq tribunadan ölkəmizin zəfərini dünyaya bəyan edib.

Azərbaycanın şanlı Qələbəsini beynəlxalq hüququn, ədalətin və Qoşulmama Hərəkatı dəyərlərinin təntənəsi kimi dəyərləndirən dövlətimizin başçısı hazırda əsas çətinliyin Ermənistan tərəfindən basdırılmış çoxsaylı minaların olduğunu vurğulayıb. Bildirib ki, minalar azad olunmuş ərazilərdə yenidənqurma prosesini və məcburi köçkünlərin evlərinə qayıdışını ləngidir. Ermənistan mina xəritələrini verməkdən boyun qaçırır. Beynəlxalq ictimaiyyət Ermənistanı məcbur etməlidir ki, azad olunmuş bütün ərazilərin mina xəritələrini Azərbaycana versin.

# Gənc zabitlər xidmətə başladılar

**İyulun 12-də Daxili İşlər Nazirliyində bu il Polis Akademiyasının əyani şöbəsini bitirmiş məzunların paytaxtın polis orqanlarında orta rəis heyəti vəzifələrinə təyin olunmalarına həsr olunmuş tədbir keçirilib.**

Nazir, general-polkovnik Vilayət Eyvazov iştirakçıları zabit rütbələrinə layiq görülmələri, özlərinə çox şərəfli peşə və həyat yolu seçmələri münasibətilə təbrik edərək təyinatın şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini vurğulayıb.

Daxili İşlər naziri ölkə rəhbərliyinin gənclərə hər zaman diqqət və qayğı göstərdiyini, yüksək mənəvi, iş keyfiyyətlərinə malik bacarıqlı, istedadlı gənclərin dövlət idarəçiliyində, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün zəruri addımların atıldığını, hazırkı tədbirin də bunun bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov Nazirliyə Bakı və Sumqayıt şəhərlərində qeydiyyatda olan məzunların



dəvət edildiyini bildirib, vakant vəzifələrin və namizədlərin siyahısını elan edib.

Daha sonra püşkatma yolu ilə təyinat keçirilib. Polisin orta rəis heyəti vəzifələrinə iddiaçı olanlar həmin vəzifələrin qeyd edildiyi xüsusi zərfləri çəkib və ərazi polis orqanlarında vakant olan zabit vəzifələrinə təyinat alıblar.

Daxili İşlər naziri Vilayət Eyvazov gənc zabitlərə çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, polis adını uca tutmalarını, öz üzərlərində işləyərək bilik və təcrübələrini daim artırmalarını, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, onlarla ünsiyyətdə, rəftarda hər zaman yüksək mədəniyyət və təmkin nümayiş etdirmələrini, ədalətli, obyektiv və dürüst olmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

Qeyd edək ki, bu il DİN-in Polis Akademiyasının əyani şöbəsinin 153 məzunu olub. Onlardan qeydiyyatda olduqları ərazi üzrə 15 nəfəri Naxçıvan Muxtar Respublikasının, 138 nəfəri isə respublikanın digər şəhər və rayonlarının polis orqanlarına təyinat alıblar.





# NÖVBƏTİ UĞURLU HESABAT

## *Cəmiyyətin dəstək verdiyi polis orqanları daha qətiyyətli mübarizəyə başlayır*

**Ötən həftə Daxili İşlər Nazirliyində keçirilən Kollegiya iclasında cinayətkarlıqla mübarizə və ictimai asayişin mühafizəsinin etibarlı təmin olunduğu bir daha ölkə ictimaiyyətinin diqqətinə çatdırıldı. İctimaiyyət nümayəndələri, KİV təmsilçiləri bu iclasın bir çox göstəricilərə və çağırışlara görə də yadda qalacağını deyirlər.**

### Cinayətlər azalsa da, xidməti tələblər yüksəkdir

Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun qeyd etdiyi kimi, bu ilin birinci yarısı növbəti uğurlu hesabat dövrlərindən biridir. Çünki cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, xüsusi karantin rejiminə nəzarətin həyata keçirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində gündəlik vəzifələr yüksək səviyyədə yerinə yetirilib.

Yeri gəlmişkən, "Formula-1" Qran-pri yarışının, futbol üzrə Avropa çempionatı kimi beynəlxalq əhəmiyyətli kütləvi tədbirlərin təhlükəsizliyi daxili işlər orqanları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən, yenə də heç bir xoşagəlməz halın baş verməsinə imkan verilmədən təmin edildi. İşğaldan azad edilmiş ərazilərdə partlamamış silah-sursatların aşkar edilməsi, bu ərazilərə nəzarət postlarından kənar yollarla keçməyə cəhd göstərənlərin qarşısının alınması istiqamətində zəruri və təxirəsalınmaz tədbirlərinin davam etdirilməsi polisin Böyük Qayıdışa ciddi hazırlığının bir göstəricisidir.

Cinayətkarlığa aparılan mübarizənin nəticələrinə əsasən deyə bilərik ki, bu hesabat dövründə cinayətlərin sayında da azalmalara nail olunub. Belə ki, qeydə alınmış cinayətlərin 84,3 faizi böyük ictimai təhlükə törətməyən və az ağır növləri olub, ən çox da oğurluq, soyğunçuluq, odlu silahın tətbiqi ilə baş verən cinayətlərdə azalma müşahidə edilib. Onların azalma nisbəti 30 faizdən çoxdur. Ümumiyyətlə, daxili işlər və prokurorluq orqanları üzrə 14 min 58 cinayətin açılmasında nəzərəçarpan yaxşılaşmanın qeydə alınması cinayətkarlıqla səmərəli, qətiyyətli mübarizəyə dəlalət edir.

Daxili işlər orqanlarının fədakar fəaliyyəti ölkə rəhbərliyi tərəfindən də daim diqqət mərkəzində saxlanır, onlar qayğı ilə əhatə olunurlar. Polisin və Daxili Qoşunların peşə bayramları ərəfəsində əməkdaşlarımıza, hərbi qulluqçularımıza dövlət mükafatlarının, ali xüsusi rütbələrin verilməsi, Vətən müharibəsində döyüş tapşırıqlarının yerinə yetirilməsində fərqlənənlərin mükafatlandırılması barədə dövlət başçısının sərəncamları ali diqqətin növbəti təzahürüdür.

### İctimaiyyət nazirin müraciətini dəstəkləyir

Kollegiya iclasında narkotiklərlə mübarizənin vəziyyətinə ayrıca nəzər yetirilməsi və vətəndaşlara müraciət edən general-polkovnik Vilayət Eyvazovun artan təhlükəyə qarşı birgə mübarizəyə çağırış etməsi, bu bəlanın qarşısını almağın polisin əsas vəzifələrindən biri olaraq qaldığını, bundan sonrakı mübarizəyə ictimaiyyətin daha aktiv şəkildə qoşulmasının ümumi məqsədə fayda verə biləcəyinin mesajı oldu. Əslində, bu ilin 6 ayında polisin narkotiklərin qanunsuz dövriyyədən çıxarılması istiqamətində fəaliyyəti daha "məhsuldar" olub. Çünki ötən ilin 6 ayı ilə müqayisədə qeyri-leqal dövriyyədən 776 kiloqram çox və ya 1 ton 843 kiloqram narkotik vasitə çıxarılıb, qanunsuz kultivasiya olunan 140 ton narkotik xassəli bitki aşkarlanaraq məhv edilib.

Bununla belə, nazirin də qeyd etdiyi kimi, narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq bütün bəşəriyyəti narahat etməkdə davam edir. Qanunsuz dövriyyədən çıxarılan narkotiklərin həcmi ilbəil artsa da, onun ölkəyə gətirilmə cəhdləri də çoxalır və belə bir vəziyyət gənclərin narkotik aludəçisi olma təhlükəsini artırır.

Deməli, gələcəyimizi, genefondumuzu təhdid edən bu təhlükəni aradan qaldırmaq üçün hər kəs - sosial şəbəkə istifadəçiləri, media nümayəndələri, ziyalılar, ictimai nüfuz sahibləri ümumi işə real köməklik göstərməli, bəlanın qarşısının alınması istiqamətində təkliflər verməli, müəyyən layihələr təqdim etməlidirlər. Bir sözlə, cəmiyyət polisin maarifləndirmə tədbirlərinə qoşulub narkomaniyaya qarşı ictimai cəbhə açmalıdır. Antinarkotik təbliğat sahəsində vətəndaşların köməyinə həmişəkindən daha çox ehtiyac duyulması məhz bu zərurətdən yaranır.

Cənab nazirin müraciətinə artıq ilkin reaksiyalar var və bu, ictimaiyyətin çağırışı qəbul edib mübarizəyə qoşulmağa hazır olduğunun bariz nümunəsidir.

***Rəşad Mehtiyev,***
***polis baş serjantı***

# ƏZİZ ŞUŞA, BİZ QAYITMIŞIQ!






Övladları yaşında Şuşanı tərk edənlər 29 ildən sonra ata kimi Şuşaya qayıtdılar. Bəlkə də çoxları bir qərinəni haqlayacaq həsrətin sonunun belə bir möcüzə ilə bitəcəyini gözləmirdi. "Vətənsiz ölənlərin yerini tutanların o yurda dönüş təpərini bu illər ərzində görmədim",- deyənlərin yanıldığını Azərbaycan xalqı, Ali Baş Komandan və Azərbaycan Ordusu Vətən savaşında sübut etdi.

Bir neçə gün öncə saytlarda "Şuşanın ilk azyaşlı sakinləri" xəbəri diqqətimi çəkdi. Məsələ ilə bağlı müraciət etdikdə **Şuşa rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Səməd Məhərrəmov da faktı təsdiqlədi.** Dedi ki, həmin xoşbəxt uşaqlar Şuşada xidmət aparan polis əməkdaşlarının övladlarıdır.

Müxbirin onlara ünvanladığı sualları yaşlarına uyğun cavablandıran fidanlar doğma ata-baba yurdlarında olmaqdan məmnundurlar. Onlar Şuşanın uzun illər işğal altında olduğunu da, onun azad olunması uğrunda igid oğullarımızın necə böyük qəhrəmanlıqlara imza atdıqlarını da yaxşı bilirlər.

Bu xoşbəxt uşaqlara baxıb ürəyimdəki arzuları yazıya almaq kədərini əvəzləyəcək o sevinci yaşamaq-1989-cu ilin soyuq noyabrında tərk etdiyimiz torpaqlara dönüşümüz inanıram ki, yaxın günlərdə reallığa çevriləcək. Zəngəzura qayıtdığımız kimi İrəvana, Dərələyəzə, Vediyə, Zəngibasara, Göyçəyə, Ağbabaya da qayıdacağıq.

***Hafiz Təmirov,***
***polis polkovnik-leytenantı***

# Profilaktiki tədbirlər davam etdirilir



**Polis əməkdaşları Bakı Metropoliteninin bütün stansiyalarında maska taxmayan və yaxud ondan düzgün şəkildə istifadə etməyən şəxslərlə profilaktik söhbət aparıblar.**

Nazirlər Kabinetinin qapalı məkanlarda, ictimai nəqliyyatda, eləcə də metroda maska taxmağın məcburi olması ilə bağlı müvafiq qərarına uyğun olaraq hər kəs tərəfindən bu normaya riayət edilməsinin vacibliyi sərnişinlərin diqqətinə çatdırılıb.

Qeyd edilib ki, tibbi maska tənəffüs yollarını qoruyan fərdi vasitə olduğu üçün ağız, o cümlədən burun nahiyəsini tam olaraq bağlamalıdır və virusla mübarizədə əsas amillərdən biri məhz tibbi maskadan düzgün istifadə edilməsidir. Əgər vətəndaş maskadan düzgün istifadə etmirsə qanunvericiliyin tələbinə uyğun olaraq barəsində inzibati tənbeh tədbiri tətbiq olunur.

Tədbir zamanı vətəndaşların diqqətinə bir daha çatdırılıb ki, COVID-19-un yayılmasının qarşısını almaq məqsədi ilə polis əməkdaşları tərəfindən nəzarət profilaktik tədbirlər bundan sonra da metroda və digər sərnişin nəqliyyat vasitələrində davam etdiriləcəkdir.

***Nurlan Əliyev,***
***polis leytenantı***



# *Narkotik tərkibli bitkilər məhv edilib*

Daxili işlər orqanları "Xaşxaş-2021" tədbirlərini davam etdirir.



Yevlax RPŞ-nin əməkdaşları şəhər sakini, əvvəllər məhkum olunmuş V.Mustafazadəyə məxsus həyətyanı sahədən 184 ədəd, Astara RPŞ-nin əməkdaşları İ.Həkimovun yaşadığı Ojakəran kəndindəki evin həyətyanı sahəsindən 61 ədəd, Xaçmaz RPŞ-nin əməkdaşları Tel kəndinin meşə ərazisində kənd sakini İ.Əlimulayev tərəfindən yetişdirilmiş 311 ədəd, Sabirabad RPŞ-nin əməkdaşları Moranlı kənd sakini, əvvəllər məhkum olunmuş R.Əliyevə məxsus həyətyanı sahədən 10 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolu, BNMİ QBRŞ-nin əməkdaşları Yevlax rayon sakinləri S.Məmmədovun yaşadığı Aşağı Qarxun kəndindəki evin həyətyanı sahəsindən 8 ədəd çətənə kolu və 9 kiloqram 450 qram qurudulmuş marixuana, R.Məhərrəmovun yaşadığı evin həyətyanı sahəsindən isə 9 ədəd çətənə kolu və 400 qram qurudulmuş marixuana, İsmayıllı RPŞ-nin əməkdaşları şəhər sakini E.Dadaşova məxsus həyətyanı sahədən 11 ədəd çətənə kolu və 15 qrama yaxın marixuana, Sabirabad RPŞ-nin əməkdaşları Azadkənd kənd sakini, əvvəllər məhkum olunmuş H.Səmədova məxsus həyətyanı sahədən 61 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolu və 386 qrama yaxın marixuana aşkar edərək götürmüşlər.

Goranboy RPŞ-nin əməkdaşları tərəfindən Qarqucaq kəndi ərazisində yabanı halda bitmiş 122 ədəd çətənə kolu aşkar edilərək məhv edilmişdir.

# DÖYÜŞƏN OĞULLARIMIZI TANIYAQ

## Vətən sınağından üzüağ çıxanlar

**Şuşanın düşməndən yüngül silahlarla, süngü-bıçaqla geri alınması dünya mətbuatının manşeti oldu. Hərbçilərimizin fədakarlığı, verilən tapşırığı yerinə yetirmək, ən ümdəsi, Vətən torpaqlarını azad etmək üçün gözlərini qırpmadan ölümün üzərinə getmələri hərb tarixinə möhürünü vurdu. Xüsusi təyinatlı qüvvələrimizin döyüş təcrübəsi, 30 ildə gücləndirilmiş düşmən sədlərini darmadağın etmələri ən güclü orduları belə heyrətə gətirib. Düzdür, müasir döyüşlərin taleyini müasir silahlar, texnikalar həll edir. Ancaq ürəkli, qorxmaz oğullar yetişdirən xalqın iradəsi, Ali Baş Komandanın qətiyyəti də nəzərdən qaçmamalıdır. Pənah xan yurduna azadlıq gətirən, xalqımıza qələbə bəxş edən fədakar oğullardan biri də çavuş Əlizadə Nicat Elxan oğludur.**



Hərbi qulluqçumuz 1994-cü il noyabrın 9-da Şirvan şəhərində doğulub. 2002-2012-ci illərdə Şirvan şəhərindəki 3 saylı tam orta məktəbdə təhsil alıb. 2013-cü ilin yanvar ayından 2014-cü ilin iyul ayınadək Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. O, 2015-ci ilin avqust ayında Daxili Qoşunlarda müddətdən artıq xidmət etmək üçün müraciət edib. Lənkəran rayonunda yerləşən "N" saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsində radiotelefonçu-atıcı vəzifəsinə təyin olunub. 2017-ci ilin avqust ayında isə xüsusi təyinatlı dəstədə eyni vəzifəyə keçirilib. Vətən müharibəsi başlayana qədər bu vəzifədə xidmət edən qəhrəmanımız xüsusi təyinatlıların sırasında torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qoşulub.

Əvvəlcə Xocavənd rayonunun Hadrut qəsəbəsində və Füzuli rayonunda mövqelərimizin müdafiəsi, ermənilərin diversiya-kəşfiyyat qruplarının qarşısının alınması üzrə döyüş tapşırıqlarını yerinə yetirən qazimizin daxil olduğu qrup sonra Şuşaya doğru istiqamət alıb.

Onlar Şuşa istiqamətində hərəkət edərkən düşmənin ağır artilleriya atəşinə məruz qalıblar. Yaralıların və şəhidlərin olmasına baxmayaraq, Şuşa-Xankəndi yolu istiqamətində irəliləyiblər. Onlara Şuşadan Xankəndiyə gedən yolu nəzarətə götürmək tapşırığı verilib.

Qazimiz Şuşa ətrafında meşə və dərələrdə, Şuşa-Xankəndi yolunda gərgin döyüşlərin iştirakçısı olduğunu bildirdi: "Xankəndi istiqamətindən düşmən tanklardan və ağır artilleriyadan qüvvələrimizi atəşə tuturdu. Şuşa-Xankəndi yolu üzərindəki yükseklikdə yerləşən düşmən postlarını alaraq, Şuşaya gedən yolu nəzarətə götürdük".

O, noyabr ayının 6-da Xankəndi-Şuşa yolunda yaxınlığına düşən mərmi nəticəsində yaralanıb. Qəlpə onun sol əlinin iki barmağını aparıb.

Nicat yaralanan zaman ona Daxili Qoşunların Hacıqabul rayonunda yerləşən "N" saylı hərbi hissəsinin xüsusi təyinatlısı gizir Şiraz Həsənovun ilkin tibbi yardım göstərdiyini söylədi.

Qazimiz gözləri önündə şəhid olan silahdaşlarının xatirəsinin heç vaxt unudulmayacağını deyir. Yaralandığı zaman qoşunların "N" saylı hərbi hissəsinin Cəlilabad rayonundakı patrul taborunun xüsusi təyinatlısı baş əsgər Pərviz Həsənovun (ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib) yanında başından aldığı qəlpə yarasından şəhid olduğunu ürək ağrısı ilə qeyd edir.

Nicat yaralanmasına baxmayaraq, Şuşanın işğaldan azad olunduğu günə qədər döyüş bölgəsindən ayrılmayıb. Noyabrın 8-i şəhərin azad olunması xəbərinin Azərbaycan Respublikasının Prezidentinə məruzə edilməsi ona ağrılarını unutdurub.

Hərbi qulluqçumuz noyabrın 8-də Hadruta gətirilib. Şuşa azad edilən günün səhəri - noyabrın 9-da isə Füzuli Rayon Xəstəxanasına aparılıb. Şirvan Xəstəxanasında müalicə alan qazimiz noyabrın 11-dən müalicəsini Daxili Qoşunların Hərbi Hospitalında davam etdirib.



Yeri gəlmişkən, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların Hərbi Hospitalında müalicə olunan yaralı hərbi qulluqçulara baş çəkərkən çavuş N.Əlizadənin vəziyyəti ilə də maraqlanıb. Nicatın sol əlinin iki barmağının olmamasına baxmayaraq, ona xidmətini polis orqanında davam etdirməsini təklif edib. Hərbi qulluqçumuz bu təklifi minnətdarlıq hissi ilə qəbul edib.

Hazırda polis serjantı Nicat Əlizadə Şirvan Şəhər Polis Şöbəsinin ictimai təhlükəsizlik bölməsində xidmətini davam etdirir.

"N" saylı hərbi hissədə "Gürzə" şərti adı daşıyan xüsusi təyinatlı dəstənin komandiri, "Zəfər" ordeni, "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmiş kapitan Cavid Tağıyev dəstədə xidmət etmiş çavuş N.Əlizadənin Vətən müharibəsində tabeliyində olan qrupda döyüşdüyünü bildirdi: "Yüksək iradə və cəsarət nümunəsi göstərən Nicat düşmənin güllə, mərmi yağışı altında bir addım belə geri çəkilməyib, hədəfə çatanadək düşmən üzərinə həmlələr edib".

Azərbaycan Respublikası Prezidentinin 18, 25 dekabr və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Nicat Əlizadə "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*kapitan Sadıq Rəfiyev*

# Gəncləri qorumaq gələcəyi qorumaqdır

Yeniyetmələri məlumatlandırmaqla bir çox riskləri qabaqcadan neytrallaşdırmaq mümkündür. Buna görə də polis gənclər arasında narkotik vasitələrdən istifadənin qarşısını almaq, eləcə də kriminal meyilə çevriləcək digər zərərli vərdişlərin önünü kəsmək üçün maarifləndirici tədbirlərə üstünlük verir.



Bu mənada, deyə bilərik ki, yerlərdə yetkinlik yaşına çatmayanlarla profilaktik iş aparan əməkdaşlarımız gələcəyimizin keşikçiləri kimi xidmət edirlər. Çünki onların fəaliyyətinin əsas hissəsi gəncləri maarifləndirməklə gələcəyimizi qorumağa, xilas etməyə yönəlib. Buna şagirdlərlə keçirilən görüşlər mühüm töhfə verir.

**Xəzər Rayon Polis İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin inspektoru, polis kapitanı Xəyalə Həsənova** şagirdlərlə mütəmadi tədbir keçirən inspektorlardandır. O, "Polis"in suallarını cavablandırarkən deyib ki, məktəbdə müəllim və psixoloqların iştirakı ilə yetkinlik yaşına çatmayanlarla aparılan maarifləndirici söhbətlər mümkün hüquq pozuntuları, hətta cinayətlərin profilaktikası üçün əhəmiyyətlidir. Həmkarımız pandemiyadan öncə keçirilən maarifləndirmə tədbirlərində valideynlərin iştirakını təkcə polisin deyil, cəmiyyətin uğuru kimi qiymətləndirib.



"Xəzər rayonunda keçirdiyimiz tədbirlərin mövzuları gənclər arasında xoşagəlməz hadisələr, intihara cəhdlər, yetkinlik yaşına çatmayanların psixoloji problemləri, nakomaniya və internetdən təhlükəsiz istifadə kimi məsələləri əhatə edib. Əsasən, yuxarı sinif şagirdlərinin cəlb olunduğu 9 tədbir keçirmişik . Onların 5-i karantin qaydalarına əməl etməklə ənənəvi görüş şəklində, 4-ü isə onlayn qaydada baş tutub",- deyə X.Həsənova bildirib.

İtkin düşmüş, xəbərsiz evdən getmiş 7 yeniyetməni tapıb ailələrinə təhvil verən rayonun polis əməkdaşları təhsildən yayınan 13 şagirdin də təhsilə davamiyyətinin bərpa olunması üçün müvafiq tədbirlər görüb, onların valideynlərilə söhbətlər aparıblar. Ərazidə keçirilən reydlər zamanı yetkinlik yaşına çatmayanlara tütün və spirtli içki satanları da müəyyən edərək barələrində inzibati tənbeh tədbirləri görən həmkarlarımızın xidməti öz müsbət təsirini hesabat dövründə göstərib. Belə ki, rayon ərazisində yeniyetmələr tərəfindən cəmi 3 cinayət hadisəsi törədilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 fakt azdır.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Rəğbət və minnətdarlıq hissi ilə...

**Azərbaycan polisinin işi təkcə cinayətkarları ifşa edərək cinayətlərin üstünü açmaq, sabitliyi qorumaqdan ibarət deyil. DİO əməkdaşları hər zaman köməyə ehtiyacı olan vətəndaşların yardımına da yetişir, humanist addımları ilə də fərqlənirlər. "Ekologiya dünyası" qəzetinin baş redaktoru Natiq Qorxmazovun Lənkəran rayonunun Hirkan qəsəbə sakinləri adından DİN rəhbərliyinə ünvanladığı məktub bu gün polisə qara yaxanlara tutarlı bir cavabdır.**




İctimai rəyin təsir gücü əvəzsizdir və hər hansı bir peşə sahibinin fəaliyyətinə verilən qiymət müşahidələrin məhsuludur. Asayiş keşikçiləri həm də əsl vətəndaş yanğısı ilə onlara edilən müraciətləri cavablandırır, polisin fəaliyyətinə aid olmayan məsələlərin həllində belə hər zaman vətəndaşa dəstək nümayiş etdirirlər. Peşəkarlıq illərin bəhrəsidir, ancaq insanlıq, yardıma tələsmək Azərbaycan Polisinin yarandığı gündən həyat kredosudur. Cəmiyyət həyatının bütün sahələrində, o cümlədən hər bir ictimai fəaliyyətdə polisin imzasını görmək mümkündür. Sadalamaq istəmirəm, qısası, polisin narkotik vasitələrə qarşı mübarizəsi övladlarımızı bu bəladan qorumaq üçün əsl ölüm-dirim savaşı, görünən dağa bələdçinin olmadığına bir işarədir...

Məktub müəllifi daha sonra yazır: "Bugünlərdə Murad Məmmədovun həyatını da Yol Patrul Xidmətinin əməkdaşları xilas ediblər. Nəfəs almaqda çətinlik çəkən 9 yaşlı Muradı valideynləri xəstəxanaya çatdırmaq üçün yola çıxsalar da Ələt-Astara yolunun 213-cü kilometrliyində avtomobildə nasazlıq yarandığından onlar yol qırağında köməksiz vəziyyətdə qalıblar. Bu vaxt orada 90YP941 BMW markalı avtomobildə xidmət aparan polis əməkdaşları onlara yaxınlaşıb yolda qalmalarının səbəbini öyrənmək istəyərkən Muradın gücլə "Ölürəm mənə kömək edin," - deməsini eşidiblər. Onlar vaxt itirmədən uşağı və atasını xidməti avtobillə Lənkəran Mərkəzi Xəstəxanasına çatdırıblar. Həkimlərin səyi, polislərin çevikliyi nəticəsində onun həyat təhlükəsi aradan qaldırılıb"...

***Yeri gəlmişkən, məktubla bağlı Lənkəran ŞRPŞ-nin Növbətçi hissəsi ilə əlaqə saxladıq. Bildirdilər ki, həmin gün xidmət aparan əməkdaşlar polis baş serjantları Nail Şərifov və Rövşən İsmayılov olub.***

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**NBPİ əməkdaşlarının** keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 8-də Baş Sumqayıt dəmir yolu stansiyasının ərazisindən 7 ədəd transformator oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş H.Cəfərov saxlanılmışdır.

◆◆◆

**Binəqədi RPİ 5-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 9-da rayon ərazisindəki mağazaların birindən 90 manat və orada quraşdırılmış “Milli ön” ödəmə terminalından isə 8417 manat oğurlamaqda şübhəli bilinən Mingəçevir şəhər sakini R.Xəlilov saxlanılmışdır.

◆◆◆

**Xətai RPİ 36-cı PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən əvvəllər məhkum olunmuş H.Orucov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun yaşadığı mənzilə baxış zamanı oradan 1 kiloqram 425 qram heroin, metamfetamin və narkotik vasitəni satarkən istifadə etdiyi 6 ədəd bank kartı götürülmüşdür.

◆◆◆

**Lənkəran ŞRPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş F.Fərəcov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin və metamfetamin aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə narkotik vasitəni ona satmaqda şübhəli bilinən F.Həmdəmov da müəyyən edilərək saxlanılmışdır. Onun yaşadığı evə baxış zamanı oradan 1 kiloqram 30 qram heroin, 1 kiloqram 15 qram metamfetamin aşkar edilərək götürülmüşdür. Həmçinin orada olan həmyerliləri, əvvəllər məhkum olunmuş R.Səfərov və S.Seyfullayevdən də heroin və metamfetamin götürülmüşdür.

◆◆◆

**Sumqayıt ŞPİ 2-ci PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Xaçmaz rayon sakini, əvvəllər məhkum olunmuş E.Ramazanovun idarə etdiyi “VAZ-21140” markalı avtomobilə baxış zamanı oradan 1 ədəd süngü bıçaq, sərnişini - həmyerlisi, əvvəllər məhkum olunmuş O.Səfəridən isə 132 qrama yaxın heroin və 4 qrama yaxın metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Nəsimi RPİ-nin 19-cu Polis Şöbəsinə** iyulun 9-da saat 1 radələrində Cavadxan küçəsində bir nəfərin Bakı şəhər sakini, 16 yaşlı R.Musayevin qol və qarın nahiyələrinə vintaçan və şüşə parçası ilə xəsarət yetirərək pul tələb etməsi barədə məlumat daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluq əməlini törətməkdə şübhəli bilinən Abşeron rayon sakini A.Əlimərdanov müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Bərdə RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər ərazisində yaşayan M.Hüseynovun evinə baxış zamanı oradan müvafiq sənədləri olmayan ov tüfəngi, həyətyanı sahəsindən isə kultivasiya yolu ilə yetişdirilmiş 14 ədəd çətənə kolu aşkar edilərək götürülmüşdür.

# “AĞ ÖLÜM” satan nəzarətçi

Səbail RPİ Narkotiklərlə Mübarizə Bölməsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayonun Səməd Vurğun küçəsində parklanma nəzarətçisi işləyən Nəriman Ağayev narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinərək saxlanılıb.

Onun üzərinə keçirilən baxış zamanı 2 qram heroin, 1 kibrit qutusu qurudulmuş marixuana və 7 ədəd psixotrop həbb aşkar edilərək götürülüb. İfadəsində narkotik vasitələri internet üzərindən onlayn qaydada Azər adlı şəxsdən aldığını bildirməsi ilə davam etdirilən tədbirlərlə Azər adlı şəxsin əvvəllər narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə dəfələrlə məhkum olunmuş Nəsimi rayon sakini Azər Həsənov olması müəyyən edilib. Keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində A.Həsənov da saxlanılıb və onun üzərindən 2 qram heroin, yaşadığı mənzildən isə 2 kiloqram 300 qram heroin aşkar edilərək götürülüb.

Səbail Rayon Polis İdarəsi tərəfindən araşdırmalar davam etdirilir.

*"Polis"*

# Sanitariya-gigiyena qaydalarına nəzarət gücləndirilir



Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birgə Xəzər dənizinin sahil zolağında, çimərliklərdə sanitariya-gigyena qaydalarına riayət edilməsi ilə bağlı tədbirləri davam etdirir.

İyulun 7-də Xəzər rayonunun Türkan qəsəbəsində keçirilən növbəti belə tədbir zamanı Ə.Hacıyev küçəsində məişət və digər qarışıq tullantıların qalaqlanması aşkar edilib. İnzibati Xətalar Məcəlləsinin 271-ci maddəsinin (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) tələblərini pozduğuna görə Türkan Bələdiyyəsinin sədri B.Yarıyev barəsində inzibati xəta haqqında protokol tərtib edilib.



İyulun 13-də Sabunçu rayonunun Pirşağı qəsəbəsində keçirilən tədbir zamanı isə Xəzər dənizinin sahil zolağında yerləşən “Mirvari”, “Gold Sea”, “Caspi”, “Bayraq” və “Dəniz” istirahət mərkəzlərində sanitariya-gigyena qaydalarının pozulması faktları aşkar edilib. Həmin istirahət mərkəzlərinin sahibləri barəsində İnzibati Xətalar Məcəlləsinin 266.2-ci (istehsalat və məişət tullantıları haqqında qanunvericiliyin pozulması) maddəsi ilə inzibati xəta haqqında protokollar tərtib edilib.

# Duel – aşkar cinayət

## Nəyə görə ölkəmizdə duel ənənəsi yayılmadı?

**1547-ci ildə Avropada son rəsmi duel baş tutub. O vaxtdan bəri dueldə “şərəfin müdafiə edilməsi” cinayət elan edilsə də, şəxsi mübahisələrin silahla həll edilməsi hallarına sonrakı əsrlərdə də rast gəlinirdi.**

"Duel" orta əsrlər latın dilində "məhkəmə çəkişməsi" mənasını verirdi. Baxmayaraq ki, sonradan bu dava demək olar ki, həmişə məhkəmədənkənar, qanunsuz olaraq baş tuturdu və gizli şəkildə həyata keçirilirdi. Dueldə iştirak edənlərin mənəvi əsasları var idi, onlar hesab edirdilər ki, Tanrı haqlı olanı qoruyub, günahkarın məğlub olmasına kömək edəcək və nəticə nə olursa olsun, “Allahın hökmü” sayılacaq.

Ancaq zaman keçdikcə duel cinayət əməli sayılmağa başladı. Artıq XVI əsrdə Avropada qanlı duellər qadağan edilmişdi. 1566-cı ildən etibarən Fransada dueldə iştirak edən hər hansı bir şəxs edam cəzasına məhkum edilirdi.

Əslində, Fransa hər zaman bu davanın adət və qaydalarının "qanunvericisi" rolunu oynayıb. Onlar duelin müəyyən “əxlaq normaları” çərçivəsində baş tutmasını təmin etmişdilər - məsələn, yaşlı adamla cavan oğlanın duelində nəticə əvvəlcədən bəlli idi, buna görə də onların vuruşmasına ehtiyac qalmadan sekundant qalib tərəfi elan edirdi.

Rusiya və onun təbəələri olan dövlətlərdə də duellər sürətlə populyarlıq qazanmağa başlamışdı. İş o yerə çatmışdı ki, I Pyotr zabitlər arasında döyüşləri qəti qadağan etmiş, hətta dueldə ölənlərin də asılması ilə edam edilməsi göstərişi vermişdi.

Duellərə qarşı mübarizənin daha da sərtləşməsi 1787-ci ildə onun ağır cinayət, bu hadisələrin bütün iştirakçılarının isə cinayətkar olması barədə hökm qanunda təsbit olunsa da, XIX əsrin ortalarında Rusiyada bu təcrübə bir kult olaraq çiçəkləndi. Dueldə ölənlər arasında nəinki hərbçilər-zadəganlar, dünya şöhrətli ədiblər, yazıçılar da var idi. Məsələn, Puşkin baron Danteslə (1837), Lermontov baron de Barant ilə (1840) dueldə ölmüşdü.

*Ardı gələn sayımızda.*



# Yeni xidməti avtomobillər verilib

Operativliyi artırmaq, hadisə yerinə asayiş keşikçilərinin çatdırılmasını təmin etmək üçün xidməti avtomobillərlə təchizat mühüm rol oynayır. Bugünlərdə Daxili İşlər Nazirinin əmri ilə işğaldan azad edilən rayonlarda, paytaxtımızda, eləcə də yerlərdə çətin və şərəfli xidmətlərini uğurla davam etdirən polis idarə və şöbələrinin əməkdaşlarına fəaliyyətlərini daha da səmərəli təşkil etmələri üçün yeni “Fiat Doblo” və “Lada Niva” markalı avtomobillər verilib.

Qeyd edək ki, bu avtomobillər yüksək manevr və keçid qabiliyyətinə, eləcə də müasir mobil təchizata malikdir.

*"Polis"*

# Həyatını polislər xilas etdi



Bu yaxınlarda Ağcabədi rayon sakini Səfər Əliyev tanışı Rövşənlə Haramı düzündə ot biçərkən əlini ilan sancıb. Rövşən öz motosikleti ilə Səfəri həkimə çatdırmaq istəsə də, axşam saatları olduğu üçün yolu azıblar. Onların köməyinə polislər çatıb.

**S.Əliyev:** “Zəhər təsirini göstərdikcə ağrıya tab gətirə bilmirdim. Polislər o çətin keçilən yollarla məni xəstəxanaya çatdırdılar. Sonradan öyrəndim ki, xilaskarlarımız Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları-Gəncalı Qəmbərov və Elmir Pənahlıdır. Mən bu gün polislərimizin fədakarlığı səbəbindən həyatda qaldım. Onlara ömür boyu minnətdaram. Polislər mənim həyatımı xilas edərkən öz həyatlarını təhlükəyə atdılar...”

***Aslan Qiyaslı,***
***polis baş leytenantı***

## İyul ayının 9-dan 13-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 231 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 32 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 94, o cümlədən borclu şəxs qismində axtarışda olan 62 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 13 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 17 nəfər ölmüş, 11 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 152 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9450
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00
Qiyməti 40 qəpik